**Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyinin yeni tərkibini təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

“Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə”nin 4.4-cü bəndini və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyi (bundan sonra - Katiblik) üzvlərinin sayı 3 nəfərdən ibarət aşağıdakı tərkibdə təsdiq edilsin:

**Katibliyin rəhbəri:**

| | |
|---|---|
| Əzizə Cəfərova | Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Ümumi şöbəsinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun *müdiri.* |

**Katibliyin üzvləri:**

| | |
|---|---|
| İlknur Əhmədov | Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Ümumi şöbəsinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun böyük məsləhətçisi; [1] |
| Həsən Həsənli | Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Hüquq şöbəsinin məsləhətçisi. |

Əsas: Apellyasiya Şurasının sədri Samir Vəliyevin təqdimatı.

2. “Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyinin yaradılması haqqında” Azərbaycan Respublikası Energetika Nazirliyinin 2016-cı il 12 fevral 3 nömrəli Əmri qüvvədən düşmüş hesab edilsin.
3. Ümumi şöbə bu əmrin surətini Apellyasiya Şurasının və Katibliyin üzvlərinə çatdırılmasını təmin etsin.
4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

5 fevral 2018-ci il
№ 18